“Zülm etməkdən çəkinin, çünki zülm Qiyamət günü zülmət olacaq və xəsislik etməkdən çəkinin, həqiqətən də xəsislik sizdən əvvəlkiləri məhv etdi,

Cabir bin Abdullahdan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “Zülm etməkdən çəkinin, çünki zülm Qiyamət günü zülmət olacaq və xəsislik etməkdən çəkinin, həqiqətən də xəsislik sizdən əvvəlkiləri məhv etdi, onları bir-birinin qanını tökməyə və haramlarını halal saymağa sövq etdi”.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) zülmdən çəkindirmişdir. Bura insanların başqasına zülm etməsi, özünə zülm etməsi və Uca Allahın haqlarında zülm etməsi də daxildir. Zülm hər kəsə haqqını verməyi tərk etməkdir. Həqiqətən də zülm qiyamət günü öz sahiblərinə çətinliklər və qorxuların baş verməsi ilə zülmət olacaqdır. O, şiddətli xəsisliyi qadağan etmişdir. Bura malla olan haqları ödəməkdə olan səhlənkarlıq və dünyaya olan hərislik də daxildir. Bu növ zülm bizdən əvvəlki ümmətləri bir-birini öldürməyə və Allahın haram etdiklərini halal saymağa sövq etdiyi üçün məhv etdi.

http://sunnah.global/hadeeth/az/show/5787